# "ƏGƏR BƏŞƏRİYYƏT BU "TACLI BƏLA"DAN XİLAS OLSA, GƏLƏCƏK SİVİLİZASİYA ELM ÜZƏRİNDƏ QURULACAQ..."



***"İndi insanlarda böyük "koronafobiya", ümidsizlik, qorxu yaranıb. Müharibə dövründə də bu ümidsizliyi, qorxunu müşahidə etməmişdim"***

Bu gün dünyanı sarsıdan koronavirus fəlakəti, onun ortaya çıxma səbəbləri və bu bəladan xilas olmağın yolları bütün bəşər övladını düşündürən həyati məsələyə çevrilib. Hər kəs insanlığın gələcəyini təhdid edən "gözəgörünməz düşməndən" qurtulmağın yollarını arayır. Belə məqamda insanlar uzun illərdir unutduqları, həmişə arxa plana keçirdikləri bir qapıya üz tutmağa məcbur olublar: Elmin qapısına...

Moderator.az koronavirus bəlasının yaşatdığı fəadların səbəbləri, bu təhlükədən insanlığın necə xilas olmasının yolları barədə dünya şöhrətli alim, görkəmli azərbaycanlı professor Rafiq Əliyevin düşüncələrini öyrənib.

Hesab edirik ki, böyük alimin fikirləri bəşəriyyətin gələcəyi üçün narahat olan hər kəsin yoluna işıq tutacaq...

**"Yaşadığımız gəmidə İlahi hüzur yoxdur..."**

"Mən hələ 2000-ci illərin əvvəllərində yerli televiziyaların birində bir proqramda qonaq olarkən bir məsələ barədə danışmışdım. Yerinə düşdüyü üçün onu bir daha xatırlatmaq istərdim...

Biz hamımız - bütün bəşəriyyət çox kiçik bir kosmik gəmidəyik. Bu gəminin ölçüsü kainatla müqayisədə çox kiçikdir, amma buna baxmayaraq gəmidəkilər heç cürə bir-biri ilə yola getmirlər. Ona görə də bu gəmidə hüzur yoxa çıxıb. Əgər hüzur olsaydı, Xerosimaya bomba atmazdılar, İraqı bombardman etməzdilər, bir sıra Şərq ölkələrində hələ bu gün də davam edən acınacaqlı vəziyyəti yaratmazdılar".

**"Əgər İlahi hüzur, İlahi düzən pozulubsa..."**

Bütün sistemlərin nizam meyarı - istər fiziki sistemdə, istərsə də mənəvi sistemdə olsun - elmi dillə desək, entropiya ilə ölçülür.

İndi dünyamızda entropiya sonsuz sayda artıb. Entropiya çoxalanda isə həmin sistem dağılmağa məhkumdur: istər bu, bütöv dünya sistemi olsun, istərsə də kiçik bir sistem olsun.

Bütün bunları nəzərə alaraq mən o zaman demişdim ki, təqribən bu əsrin 30-cu illərində biz yeni bir sivilizasiyada yaşayacağıq. Ona görə ki, bu sivilizasiya davam gətirə bilməyəcək, çünki entropiya hədsiz çoxalıb".

**"Axirət Günü" saatı...**

"Fikirlərimi daha aydın çatdırmaq məqsədilə bir haşiyə çıxım...

ABŞ-ın fizika alimləri bir simvolik saat düzəldiblər. Bu barədə çox yazılıb.

Bu saatda 12:00 simvolik olaraq "Axirət Günü"nü göstərir. 2000-ci ilin əvvəllərində onun əqrəblərini 11:55-in üzərinə gətirmişdilər. Məlumdur ki, dövrümüzün əsas təhdidi nüvə silahlarıdır, bu 5 dəqiqə onu göstərirdi.

2018-ci ildə onun əqrəblərini 11:58-in üzərinə çəkdilər, yəni ""Axirət Günü"nə 2 dəqiqə qalıb" mənasında.

2019-cu ildə ona toxunmadılar. Ona görə ki, düşündülər ki, dünyada heç nə dəyişmədi. Bu gün də planetimizdə həmin münaqişələr davam edir, həmin silahlar atılır. Onsuz da bu 2 dəqiqədə hər şey sona çatacaq.

Və... 2019-cu ilin sonunda "Taclı kabus" ortaya çıxdı. Bu gün Domokl qılıncı kimi bütün insanların başının üstündə yellənir. Həmin 2 dəqiqə bunu ifadə edirdi. Ötən il əqrəbləri ona görə irəli çəkməmişdilər".

**"Nicat yolu nədir? Nə etmək lazımdır?- Bəşər övladının qarşısında iki alternativ var..."**

"Düşünün ki, 150 dəfə dünyamız boyda varlığı məhv etmək gücündə olan həmin bombalar nano ölçülü virusun qarşısını almağa yetmədi. Hansı ki, neçə ölkəni birdən məhv edərdi. Niyə? İlahi düzən pozulub, ona görə... İnsanlar anlamadılar ki, bu düzəni pozmaq olmazdı..

Hesab edirəm ki, bəşər övladının qarşısında iki alternativ yol var:

Bu katarsiz dövrüdür. Mən II Dünya müharibəsini də görmüşəm, onun fəsadlarını, nəticələrini də görmüşəm. Ancaq bütün ömrüm boyu bu qədər təhlükəli, gələcəyi qaranlıq vəziyyət görməmişəm. İndi insanlarda böyük "koronafobiya", ümidsizlik yaranıb, qorxu yaranıb. Müharibə dövründə də bu ümidsizliyi, qorxunu müşahidə etməmişdim".

**"Birinci yol odur ki,.."**

"Bütün insanlar bu gün yaranmış vəziyyətə görə səhvlərini, günahlarını etiraf edərlərsə (bu vəziyyətin yaranmasında hər birimizin o virus boyda günahımız var), xüsusən, siyasətçilər, dövlət adamları, hərbçilər və elm adamları, əyləncəyə mlyonlar xərcləyib, elmə isə balaca bir camda pay verənlər yanlışlıqlarını anlayarlarsa... Bu, birinci mərhələdir.

Burada bir faktı xarıladım. Bu hadisələr təzə başlayanda İspaniyada bir virusoloq professor çox haqlı olaraq yazmışdı ki, gedin milyonlar xərclədiyiniz Messidən, Ronaldodan imdad istəyin. Onlar gəlib sizi xilas etsinlər. Bizə nə verirsiniz: 1500-2000 avro. Ancaq xilas olmağın yollarını bizdən istəyirsiniz...

Bu, o deməkdir ki, elmə verilən qiyməti artıra bilsək, xilasa ümid var".

**"Yəni, tövbə edə bilsək..."**

"İndi bütün insanları nə düşündürür? Siyasətçilərdən, dövlət adamlarından tutmuş, sıradan insanlara qədər hamı düşünür ki, görəsən, alimlər nə etdilər, bu bəlanın əlacını tapdılarmı? Görəsən, nə vaxt tapılacaq?..

Yenidən hər kəsin vektoru elmə, alimlərə yönəlib. Bax, mən tövbə etmək buna deyirəm.. Yaranmış katarsiz göstərir ki, biz, əgər bu bəladan qurtula biləriksə, bu çətinlikdən çıxarıqsa, o zaman bayaq dediyim sivilizasiyaya gedəcəyik.

Orada isə tamamilə başqa münasibətlər olacaq. Əgər bundan düzgün nəticə çıxara bilsək".

**"Yenə də qeyri-səlis məntiq..."**

"Burada yenə də qeyri-səlis məntiqə toxunmaq istəyirəm. Bu, tolerantlıq məntiqidir. Dost-düşmən məntiqi deyil, hər şeyi ağ-qara görmək məntiqi deyil...

Dediyim həmin sivilizasiya olacaqsa, orada tamamilə başqa məntiq olacaq. Ən yaxşısı odur ki, bu sivilizasiyada qeyri-səlis məntiqdən də yüksəkdə dayanan "Tanrı məntiqi" ilə düşünsün insanlar.

**"İkinci alternativ odur ki,.." və yaxud, "Yəhudi kahini Leov"**

"İkinci alternativ odur ki, tövbə edə bilməyəcəyik və "Axirət Günü" saatındakı 2 dəqiqəni yaşamalı olacağıq. İnsanlığın sonu gələcək...

Belə bir yəhudi rəvayəti var. Leov adlı bir kahin bir məxluq yaradır, ona can verir, ancaq ruh vermir. Bu məxluq başlayır böyük rəzalətlərlə məşğul olmağa, insanları məhv etməyə. Çünki ruhu yox idi. Sonda kahin məcbur olub yaratdığı məxluqu öldürür.

Ancaq indi bizim elmimiz bu qorxulu virusu öldürə bilmədi. Nə üçün? Təəssüf ki, dövrümüzdə elmə düzgün əhəmiyyət verilmədi. Çünki elmə fikir verilmədi, elmin rolu düzgün qiymətləndirilmədi... Niyyəti başqa oldu, ruhu olmadı...

Bayaq vurğuladığım kimi, bu, göstərir ki, nicat üçün elmə söykənmək lazımdır. Lakin burada da bir amil var".

**"Elmlə əxlaq yanaşı olmalıdır, əks halda...", yaxud elmdə "Kapitsa əxlaqı"**

"Yeni sivilizasiyaya keçə bilsək, gərək burada da elmlə əxlaq arasında bir harmoniya olsun. Əsl alimlər yaratdıqlarını humanist məqsədlər üçün yaradırlar.

Stalin nə qədər təzyiq göstərsə də görkəmli fizik alim Kapitsa atom bombası ilə məşğul olmadı. Hətta sürgünə göndərildi, yenə təklifi qəbul etmədi. Xerosimaya atom bombası atılanda Eynşteyn dedi ki, bilsəydim ki, mənim elmi uğurumun nəticəsi belə olacaq, bu nəzəriyyəni yaratmazdım.

Ona görə də vacibdir ki, elmlə əxlaq, humanist dəyərlər yanaşı getsin. Təəssüf ki, indi əxlaqi dəyərlər çox axsayır...

**Bəs bütün bunların nəticəsi nə oldu? Bugünkü yaşadıqlarımız...**

Mən arzu edirəm ki, birinci yol seçilsin və elmlə əxlaq arasında bir harmoniya olsun. Elmi nəticələr müharibələrə, qırğınlara yox, ancaq insana, insan rifahına xidmət etsin.

Bütün dövrlərdə bəşəriyyəti çətinliklərdən yalnız elm xilas edib. Düşünürəm ki, əgər bəşəriyyət bu "Taclı bəla"dan xilas olsa, gələcək sivilizasiya elm üzərində qurulacaq.

Arzum budur ki, dediyim sivilizasiyada görüşək".

**Taleh**

## KORONAVİRUS BÖHRANI TƏK ONA YARADI – *SƏRVƏTİ 24 MİLYARD ARTDI!*



Koronavirus pandemiyası bütün dünyanı maddi zərərə salsa da bəzilərinin işinə yarayıb. Əksər ölkələrdə tətbiq edilən karantin səbəbindən internet üzərindən onlayn ticarət xeyli genişlənib.

**Moderator.az** xarici KİV-ə istinadla xəbər verir ki, ABŞ-da yerləşən "Amazon" onlayn alış-veriş şirkətinin səhmləri 5.3 faiz yüksəlib. Buna görə də şirkətin yaradıcısı Ceff Bezosun sərvəti qısa müddətdə 24 milyard dollar artıb. Bezosun şirkət hissələrinin 11 faizinə sahib olduğu bildirilir.

"Bloomberg" milyarderlər indeksində Bezosun sərvətinin 138 milyard dollara çatdığını bildirib.

Artan tələbləri qarşılamaq məqsədilə "Amazon" təkcə ABŞ-da 170 min yeni işçi götürəcəyini bəyan edib.

Digər tərəfdən şirkət son günlərdə əməkdaşlarının sağlığına diqqətli yanaşmamasına görə tənqid edilir.

**Taleh**